# Gənclər Forumunun əməkdaşlıq toplantılarının yekunları müzakirə olunub

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində keçirilən Gənclər Forumunun əməkdaşlıq toplantılarının yekunları "Gənclər və sosial inklüzivlik üzrə qlobal gündəlik: Məşğuliyyət üçün ümumi baxış və imkanlar" mövzusunda tədbirdə geniş müzakirə olunub.

BMT Sivilizasiyalar Alyansının layihə əlaqələndiricisi İzabel Tibinin moderatorluğu ilə keçirilən tədbirdə BMT baş katibinin gənclər üzrə nümayəndəsi Ahmad Rafi Mohamad Alhendavi forumun təşkilində Azərbaycanın rolunu xüsusi vurğulayıb. Azərbaycanın bu mötəbər tədbirə yüksək səviyyədə evsahibliyi etdiyini deyən BMT baş katibinin nümayəndəsi təşkilatçılara müzakirə üçün əlverişli platforma yaratdıqlarına görə minnətdarlığını bildirib. Gənclərin çox zaman problemin bir hissəsi kimi qarşılandığını qeyd edən BMT baş katibinin gənclər üzrə nümayəndəsi deyib: "İnsan haqları, davamlı inkişaf, sülh və əmin-amanlıq BMT-nin vacib sütunlarıdır. Biz hər zaman hər bir ölkənin gündəminə bu məsələlərin düşməsinə çalışmalıyıq. Tarixən gənclər təhsillə əlaqəli olan şəxslər kimi qəbul edilib. İnsanlar sülh və əmin-amanlığa töhfə verir. BMT Təhlükəsizlik Şurası ötən il münaqişə zonalarında yaşayan 600 milyondan çox gənclə bağlı mühüm qətnamə qəbul etdi. Biz gənclər yeni forumların, müzakirə üçün məkanların təşkilinə çalışırıq. 2015-ci ildə 45 min insan İŞİD-ə qoşulub. Bu, bizi narahat edir. Bu forumda formalaşdıracağımız əsas meyarlar mentalitetin dəyişməsinin təzahürü olacaq və gələcəyə böyük töhfələr verəcək".

BMT Dünya Assosiasiyaları Federasiyasının davamlı inkişaf üzrə rəsmisi Mari Ulman qurumun çərçivəsində fəal şəkildə qlobal əməkdaşlığın yaradılmasının vacibliyini vurğulayaraq bu istiqamətdə daha perspektivli uğurlara imza ata bilməyin mümkünlüyünə toxunub. Gəncləri ruhlandırmağın əhəmiyyətini qeyd edən Mari Ulman təhsilin adətən əsas hədəfə çatmaq üçün vasitə olduğunu bildirərək deyib: "Potensial quruculuq gənclərin ölkələrinə qayıdarkən öyrəndiklərini tətbiq etmələrinə kömək edə bilər. Biz gəncləri həvəsləndirməliyik. Bu forum qlobal məsələlərin öyrənilməsi üçün gözəl fürsətdir. Biz gəncləri bizimlə birgə işləməyə çağırırıq".

Qana Gənc Sülh Qurucuları Şəbəkəsinin gənclər üzrə əsas əlaqələndiricisi Rəşid Zubeyru Suriya böhranının və dünyada baş verən iqtisadi böhranın ciddi çətinliklər yaratdığını diqqətə çatdırıb. Sosial cəhətdən gənclərin yetişdirilməsinin vacibliyini vurğulayan Rəşid Zubeyru gənc insanların sülhməramlı fəaliyyətə cəlb edilməsinin gələcəkdə problemlərin həlli üçün əhəmiyyətli silah olacağına əminliyini bildirib.

Gənc Sülh Qurucuları Birləşmiş Şəbəkəsinin aparıcı koordinatoru Sölvi Karlson vurğulayıb ki, gənc insanlar bəzən yanlış olaraq onlara qarşı hər hansı bir kampaniyanın aparıldığını düşünürlər. Bu, səhv fikirdir. Gənclər təşkilatları olaraq biz gənclərin belə fikirlərə qapılmasının qarşısını almalıyıq. BMT-nin müvafiq qurumları burada əhəmiyyətli rol oynayır. BMT Təhlükəsizlik Şurası çərçivəsində qətnamələrin qəbul olunmasına nail olduq. Lakin bu, kifayət deyil.

***Ardı 5-ci səh.***

# Gənclər Forumunun əməkdaşlıq toplantılarının yekunları müzakirə olunub

*Əvvəli 4-cü səh.*




Gənclərin üzərinə düşən funksiyaları yerinə yetirmələrinə çalışmalıyıq.

Hər bir gənc dünyanın müsbətə doğru dəyişməsinə töhfə verə bilər.

Ölkəmizin müstəqilliyini bərpa etməsinin bu il 25-ci ildönümünün qeyd olunduğunu deyən Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev ötən əsrin sonlarında Azərbaycanın müharibə ilə üzləşdiyini, ərazilərimizin 20 faizinin işğal olunduğunu və bu ərazilərin dağıntılara məruz qaldığını diqqətə çatdırıb. O, Azərbaycan hökumətinin gənclərin multikultural dəyərlər əsasında formalaşmasına, sülhməramlı tədbirlərdə fəal iştirak etmələrinə hər zaman böyük önəm verdiyini xüsusi vurğulayıb. Azərbaycanın nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etdiyini, Bakının artıq qlobal məsələlərin müzakirəsi üçün önəmli məkan olduğunu söyləyən F.Hacıyev ölkəmizdə bir çox dinlərin nümayəndələrinin birgə sülh və əmin-amanlıq şəraitində yaşamasını mədəniyyətlərarası dəyərlərə necə böyük önəm verməsinin təzahürü kimi dəyərləndirərək deyib: “Bizim gənclərimiz ölkəmizi, regionumuzu daha da çiçəkləndirməyə çalışırlar. Biz gənclərin ideyalarının reallaşması işinə böyük önəm veririk. Fondumuz gənclərin fərdi layihələrinin həyata keçirilməsinə çalışır. Azərbaycanın gəncləri kifayət qədər güclüdür. Biz sülhün, tolerantlığın, dini dözümlülüyün bərqərar olunmasına, layihələrimizdə davamlı inkişaf məqsədlərinin prioritet kimi əks olunmasına çalışırıq”.

**AZƏRTAC**